**AZƏRBAYCAN RESPUBLİKASİ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**MƏLİK HÜSEYN MƏCİD OĞLU**

# İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

*(İRAN İSLAM RESPUBLIKASININ MATERIALLARI ƏSASINDA)*

5307.01-İqtisadi nəzəriyyə

5310.01-Dünya iqtisadiyyatı

İqtisadyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI –2013**

Dissertasiya işi Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** İqtisad elmləri doktoru, professor **İ.H.Alıyev**

**Rəsmi opponentlər:** И.е.д., проф. **Щ.Б.Рцстямбяйов**

И.ц.ф.д., досент **А.М.Мустафайев**

**Aparıcı təşkilat:** **Азярбайъан Мемарлыг вя Иншаат Университети «Игтисади нязяриййя» кафедрасы**

Müdafiə “28” “iyun” 2013-cü il saat $14^{00}$-da Bakı Dövlət Universitetinin nəzdindəki B/FD.02.016 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Az-1148, Bakı şəhəri, Z.Xəlilov küç.,23. Bakı Dövlət Universiteti.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “25” “may” 2013-ci il tarixdə göndərilmişdir.

**B/FD.02.016 Dissertasiya Şurasının**

**elmi katibi:** **N.Q.Əhmədov**
*Riyaziyyat elmləri doktoru, professor*

## İŞİN ÜMUMİ ƏRİSTİKASI

**Mövzunun aktuallığı.** Qeyd etmək lazımdır ki, XXI əsr tarixə sivilizasiyanı keyfiyyətcə yüksəldən qloballaşma əsri kimi daxil olmuşdur. Qloballaşma prosesləri dünya ölkələrinin iqtisadi əlaqələrinin getdikcə artmasına səbəb olmusdur.

Dərin qloballasmada iqtisadi, siyasi və mədəni və mənəvi prosəslərdə özünü göstərən tendensiyalar daha çox müşahidə olunmaqdadır.Buna gorə də hər hansı bir ölkədə konkret iqtisadi ve sosial transformasiyaların konkret bir ərazidə iqtisadi proseslərin təsiri altında baş verdiyinə baxmayaraq, həmin prosesleri doğuran səbəblərlə, onların mahiyyəti və inkişaf perspektivlərinə baxmaq zəruridir.

Ümumiyyətlə, dunya dövlətlərinin tarixi inkisaf mərhələlərinə nəzər saldıqda görmək olar ki, hər hansı bir dunyaya inteqrasiyası olmadan, digər dövlətlərlə siyasi-huquqi ve iqtisadi əlaqələr yaratmadan inkisaf etməsi mümkün deyildir. Başqa sözlə desək, dövlətlərarası münasibətlər olmadan iqtisadi artım tempini əldə etmək mümkün deyildir. İstənilən dövlət öz tələbatından artıq istehsal etdiyi məhsul ixrac edir, onun da müqabilində özünə çatışmayan əmtəələri alır və beynəlxalq əlaqələr formalaşır. Mövcud problemlərin araşdırılması və həll yollarının tapılması olduqca zəruri olub öz həllini gözləməkdədir. İqtisadi sahələrin tənzimlənməsi, məsələyə elmi baxımdan yanaşmaqla və mövcud iqtisadi imkanlardan istifadə etməklə dövlət mülkiyyətinin özəlləşdirilməsi, dövlət və qeyri-dövlət sektorunun iqtisadi fəaliyyətinin tənzimlənməsi, alınmış elmi nəticələrdən istifadə edilməklə son dövrlər ərzindəki siyasi proseslər nəzərə alınmaqla kompleks zəruri iqtisadi tədbirlərin həyata keçirilməsi mütləqdir.

**Problemin öyrənilməsi səviyyəsi.** Dövlətin milli iqtisadiyyata müdaxiləsi prosesi və metodları orta əsrlərdə və bütün iqtisadi məktəblərdə iqtisadçıların mübahisə mövzusu olmuşdur. Müxtəlif iqtisadi məktəbin nümayəndələri-A.Smit, C.Keyns, Hamilton, M.Fridman, K.Marks, P.Samuelson, həmçinin İranın Sameti, Komicani, Suri, Quluzadə, Nəzəri, Pejuyan, Nili, Dərgahi, Heydəri,



Keyhani və s. Azerbaycandan isə A.A.Nadirov, A.K.Ələsgərov, Ş.M.Muradov, Z.S.Səmədzadə A.S.Şəkərəliyev, S.H.Haciyev, Ə.Q.Əlirzayev kimi məşhur iqtisadçıların dövlət və onun iqtisadi sistemdə rolu haqqında mühüm tədqiqatları vardır. Bununla belə, araşdırmalar göstərir ki, İran dövləti ölkə iqtisadiyyatında hərtərəfli rola və geniş müdaxiləyə malikdir. Bunun nəticəsi olaraq ümum daxili məhsulun sürətli artımını və digər iqtisadi böhranların təsirini göstərmək olar. İqtisadi tədqiqat və təhlillər dövlətin iqtisadiyyata müdaxiləsinin tənzimlənməsi ilə müəyyən ediləcək iqtisadi vəziyyətinin yaxşılaşmasına və İranın region ölkələri arasında yüksək iqtisadi mövqeyə çatmaq imkanını gerçəkləşdirəcəkdir və bu işi asanlaşdıran hər bir tədqiqat da olduqca yüksək əhəmiyyətə malikdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqatın əsas məqsədi dövlətin iqtisadi tənzimlənmənin mövcud vəziyyətini araşdırmaq və onu bəzi ölkələrlə müqayisə etmək, İranda dövlətin iqtisadiyyatın tənzimlənməsinin daha münasib və məqsədəuyğun həddini müəyyənləşdirməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

-dövlətin iqtisadiyyatdakı yeri və rolunun nəzəri əsaslarının tədqiqi, müxtəlif iqtisadi baxışlara malik mütəxəssislərin bu sahədəki tədqiqatlarının araşdırılması;

- dövlətin iqtisadiyyata müdaxiləsi və dövlətin iqtisadiyyata müdaxiləsinə təsir göstərən amillərlə əlaqədar mövcud proseslərin tədqiqi;
- dövlətin iqtisadiyyata müdaxiləsi faktorunun müəyyənləşdirilməsi;
- dövləti iqtisadi sahələr üzrə fəaliyyət mexanizminin təyin edilməsi;
- dövlətin iqtisadi fəaliyyətinin mövcud vəziyyətinin və İran dövləti tərəfindən iqtisadiyyatın dövlət tənzimlənməsi prinsipinin təhlili və dəyərləndirilməsi;
- bəzi dünya ölkələrində iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi təcrübəsinin tədqiqi;
- dövlət tərəfindən ödənilən subsidiyaların və yardımların müasir vəziyyətinin araşdırılması;
- vergi sistemi və onun iqtisadiyyatın ayrı-ayrı sahələrinə təsirinin təhlili və tədqiqi;

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını**. Klassizm, neoklassizm, və marksizm məktəbləri tədqiqatçılarının görüşləri əsasında formalaşdırılmış və dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsi metodları ilə əlaqədar müasir dünya alimlərinin fikirləri, həmçinin İran iqtisadçıları, İİR-nin sahə üzrə Əsas Qanunları ölkənin beşillik inkişaf proqramları, illik büdcə qanunları və s. təşkil edir.

**Tədqiqatın obyekti və predmeti.** Bu tədqiqatın obyektini İran İslam Respublikasının milli iqtisadiyyatı təşkil edir. Tədqiqatın predmetini isə milli iqtisadiyyatın İİR dövləti tərəfindən tənzimlənməsi məsələləri təşkil edir.

**Tədqiqatın informasiya bazası.** İran Mərkəzi Bankının müxtəlif illər üzrə illik büdcə qanunları, İİR Mərkəzi Bankı tərəfindən ölkənin iqtisadi vəziyyəti ilə bağlı illik məlumatlar, Dünya Bankın məlumatları, İƏT üzrə dövlətlərin iqtisadi statistik məlumatları, mövzu ilə əlaqədar daxili və xarici araşdırmalar və s. təşkil etmişdir.

**Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:**

-müxtəlif iqtisadi məktəblərin, o cümlədən, C.Keyns, K.Marks, M.Fridman və b., dövlətin iqtisadiyyatdakı rolu ilə bağlı nəzəriyyələri və görüşləri iqtisadi yanaşma baxımından tədqiq edilmişdir;

-xarici ticarət səmərəliliyinin yüksəldilməsi üzrə dünya təcrübəsi və müasir dövrün xüsusiyyətləri nəzərə alınmaqla ümumiləşdirilmisdir;

-İİR-də iqtisadiyyatın açıqlıq dərəcəsi qiymətləndirilmisdir;

-xarici ticarət əlaqələrinin səmərəliliyi kompleks qiymətləndirilmisdir;

- dövlətin bazar iqtisadiyyatındakı tənzimlənmədə rolu və mərkəzləşdirilmiş iqtisadi proqramların yaxın perspektiv dövr üzrə nəticələrinin təhlili aparılmışdır;

- dövlətin milli iqtisadiyyata müdaxiləsi, dövlətin müxtəlif iqtisadi sahələrə təsiri məsələləri tədqiq edilmişdir;

- İran dövlətinin iqtisadiyyatdakı rolu tədqiq edilərək bəzi dünya ölkələrində beynəlxalq təcrübə əsasında müqayisələr aparılaraq konkret nəticələr əldə olunmuşdur;

- İran iqtisadiyyatında vergi sisteminin iqtisadi sahələrə təsir imkanları təhlil edilmişdir;

- dövlətin İran iqtisadiyyatındakı rolunun artırılması və iqtisadi fəaliyyətin tənzimlənməsi üçün əsaslandırılmış təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dövlət və iqtisadi sahələr arasında yaranmış əlaqələrin nəzəri əsaslarının, digər ölkələrin



təcrübələrinin dövlətin iqtisadiyyatdakı rolu ilə bağlı nəzəri proseslerin öyrənilməsindən ibarətdir.

**Tədqiqatın təcrübəvi əhəmiyyəti.** Tədqiqatın əsas iddialarından təklif eləcə də, nəticələrindən istifadə etməklə İran dövlətinin iqtisadiyyatdakı rolunun effektiv şəkildə tənzimlənməsi mümkündür. Dissertasiyada aparılmış təhlillər və verilmiş təkliflər İslam Məclisi Şurasında inkişaf proqramları və iqtisadi siyasətin, qanunlarının hazırlanmasında, İqtisadiyyat və Vergi Nazirliyi, Layihələşdirmə və Büdcə Komissiyası, Mərkəzi Bank və Özəlləşdirmə İdarəsi tərəfindən istifadə edilə bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi**: İran iqtisadiyyatının və dövlətin funksional fəaliyyətinin dəyərləndirilməsi ilə bağlı dissertasiya işi üzrə verilmiş nəticələr AMEA-nın jurnallarında nəşr olunmuşdur.

**Tədqiqatın nəticələrinin çap edilməsi və işıqlandırılması:** Müəllif tərəfindən müxtəlif elmi jurnallarda elmi nəticələr üzrə səkkiz məqalə çap olunmusdur (həmçinin üç konfrans materialı da daxil olmaqla).

**İşin strukturu və həcmi**: Dissertasiya işi 161 səhifə üzrə əhatə olunmaqla giriş, üç fəsil, yeddi paraqraf, yekun nəticə və təkliflərdən, ədəbiyyat siyahsından təşkil edilmişdir. Dissertasiyada on cədvəl və qrafikdən istifadə olunmuşdur. Fars, ingilis, azərbaycan və rus dillərində elmi ədəbiyyatdan istifadə edilməklə və umumi olaraq 105 ədəbiyyatın siyahısı verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin birinci fəsili **"İqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları"** kimi verilmişdir. Bu fəsildə müəllif iqtisadiyyatın dövlət tənzimlənməsinin məzmunu və mahiyyətini, onun formalaşma xüsusiyyətlərini və bu prosesdə İran modelinin səciyyəvi cəhətlərini göstərmişdir.

Dünya ölkələrinin əksəriyyətinin təbii iqtisadi inkişafı ziddiyyətli və mürəkkəb bazar qanunları əsasında formalaşır, lakin onların strateji baxımdan tənzimlənməsində dövlətin əsas rol oynadığı sübut edilmişdir. Müvafiq proseslərin təsdiq edilməsi üçün ən yaxşı nümunə

Yaponiyadır. Belə ki Yaponiya iqtisadiyyatının sürətli inkişafının əsasını azad bazar iqtisadiyyatı mexanizmləri ilə Yaponiya dövlətinin iqtisadi idarəetmə prosesi yanaşı durur. Dünya ölkələrinin təcrübəsi göstərir ki, dövlət iqtisadi inkişafın katalizatoru kimi özəl sektorun ticarət fəaliyyətinin fəallaşmasını və onun daha səmərəli inkişafını təmin edə bilər.

Azad bazar münasibətlərinə keçid mərhələsində dövlət tənzimlənməsinin əsas dəyişkənliyi böhran dövründəki imtiyazlardan ibarətdir. Makroiqtisadi proseslərin gedişatında iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, maliyyə-büdcə siyasətinin, vergi və kreditlərin tənzimlənməsi, inhisarın aradan qaldırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi və s. göstərmək mümkündür. Dövlətin keçid şəraitindəki vəzifələri onun sabit iqtisadi dövrdəki fəaliyyətlərindən fərqlənir. Bu fərqlərin mənşəyi, adətən, keçid prosesinin xüsusiyyətləri və seçilmiş iqtisadi-ictimai modelin təbiəti ilə bağlıdır. Başqa sözlə desək, iqtisadi keçid mərhələsində dövlətin vəzifələrinin son məqsədi dəyişiklik və azad bazar iqtisadiyyatına keçməkdir. Bu da ictimai-iqtisadi quruluşun olduqca səmərəli fəaliyyətidir. Dövlətin ictimai-iqtisadi vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

- azad bazar münasibətlərinin daha münasib şəkildə formalaşması və iqtisadi inkişafa səbəb olan hüquqi-qanuni bazanın yaradılması;

- sağlam rəqabətin müdafiə edilməsi;

- sabit iqtisadi inkişafı təmin etmək, daha münasib bazarının yaradılması, inflyasiyaya nəzarət edilməsi, iqtisadi inkişafı təmin etmək və onu hərəkətə gətirmək məqsədilə tədbirlərin həyata keçirilməsi, hər hansı iqtisadi şərait nəticəsində yaranmış şübhələrin aradan qaldırılması;

- gəlirlərin bölüşdürülməsi və paylanması prosesində ictimai ədalətin təmin edilməsi;

-milli gəlirin strukturunda investisiya qoyuluşu mənbələrinin bölüşdürülməsində zəruri dəyişikliklər aparmaq məqsədilə ardıcıl olaraq islahalar və dəyişikliklər həyata keçirilməsi; Mərkəzləşdirilmiş planlı istehsal sistemindən azad bazar iqtisadiyyatına keçid prosesinin müvəffəqiyyəti yeni sistemin daha yaxşı şəkildə formalaşdığının göstəricisi, həmçinin təbii iqtisadi fəaliyyətlər üçün zəruri olan şəraitin yaradılmasıdır. Keçid mərhələsində iqtisadi strukturun daha münasib şəkildə dəyişməsi üçün lazım olan amillər ölkənin iqtisadi həyatında



fəaliyyət göstərən bütün iqtisadi müəssisələrin malikiyyət forması nəzərə alınmadan, iqtisadi azadlığa malik olmalıdır. Azad bazar iqtisadiyyatı mexanizmini qurmaq üçün sağlam rəqabət mühiti, hüquqi və təşkilatı mexanizmin yaradılması zəruridir. Bu mərhələdə normal və münasib fəaliyyətin təmin edilməsi üçün dövlətin idarəetmə sisteminin yaradılması prosesi aşağıdakılardan ibarətdir:

- sənaye üzrə dövlətin müdaxiləsi olmadan və azad bir şəkildə fəaliyyət göstərə biləcəyi mühitin yaradılması, bazar üzrə inhisarçılığın aradan götürülməsi və iqtisadi rəqabət üçün sağlam mühitin yaradılması;

- azad bazar münasibətlərinin münasib şəkildə inkişafı üçün qanunvericilikdə hüquqi-qanuni üsulların müəyyən edilməsi;

- azad bazar iqtisadiyyatı üzrə münasibətlərin yaradılması və inkişaf etdirilməsi.

İqtisadi nəzəriyyədə dövlətin iqtisadiyyata müdaxiləsi və nəzarətini azad bazar mexanizminin tənəzzülü ilə izah edirlər. Onlar bu fikirdədirlər ki, bazar idarəetməsi və qiymətqoyma sistemi, məhsul və xidmətlər, üzrə inhisarın mövcud olması və tam rəqabət şəraitinin olmaması, müsbət və mənfi xarici təsirlərdən ibarədir. Bazarların fəaliyyəti elə bir şəraitində fəaliyyət göstərir ki, tam rəqabət şəraiti mövcud olsun. Daxili və ya xarici bazarların çoxu inhisar, inhisar rəqabəti şəraitində fəaliyyət göstərir. Hətta tam rəqabətə yaxın olan kənd təsərrüfatı bazarında da tam olaraq bu bazar sərbəst deyildir. Təbii inhisarda belə qeyri-dəqiq informasiya, imtiyaz haqqı, inhisar və s. birlikdə elə hallardandır ki, bazarda rəqabəti məhdudlaşdırır. Bazarın uğursuzluğu səbəblərinin aydın şərhinin verilməsi üçün bazarın müxtəlif seqmentlərinin fərqləndirilməsi lazımdır. Bu bazarın fəaliyyətinə təsir edən ən mühüm amillər bunlardan ibarətdir: təbii inhisar, ümumi təsirlər xarici təsirlər, müxtəlif informasiyalar və bazar nöqsanları.

İqtisadiyyatın dövlət tənzimlənməsi birbaşa olaraq iqtisadi siyasətlə bağlı olub, onun həyata keçirilməsinə yönəldilmişdir. Dövlət öz iqtisadi siyasətinin məqsədlərini reallaşdırmaq üçün iqtisadiyyatın dövlət tənzimlənməsinin vasitələrini təşkil edən müxtəlif forma və metodlardan istifadə edə bilir.

Ümumiyyətlə, dövlət iqtisadiyyata müdaxilənin birbaşa və dolayı metodlarından istifadə edir. Göstərilən metodlardan istifadə edilməsi

onlar üçün xarakterik olan üsul və vasitələrin tətbiq edilməsini nəzərdə tutur.

Dövlətin iqtisadiyyata müdaxilə fəaliyyətini üç qrupa-büdcə, qeyri-büdcə müdaxilələri (siyasət və qanunların tənzimlənməsi) və idarəetmə kimi istiqamətlərə bölmək olar. Aparılmış araşdırmaların çoxunda yalnız dövlətin fəaliyyətlərinin təsirindən bəhs edilmişdir. Ancaq inkişaf etməkdə olan bir çox dövlətlərdə qeyri-büdcə fəaliyyətlənin rolu və dövlətin onları idarə etmə funksiyası daha yüksəkdir. Dövlətin tənzimləmə funksiyalarını ancaq büdcənin tənzimlənməsi rolu ilə məhdudlaşdırmaq olmaz. Belə ki, bu tədqiqat və onun digər bölümlərində bu məsələyə diqqət ediləcəkdir. Dövlət büdcəsi mühüm bir iqtisadi və milli sənəd olaraq dövlətin proqram və məqsədlərinin göstəricisidir Məşhur alim S.Ferris 1 bu fikirdədir ki, dövlətin ölçüləri üçün üç ölçü vasitəsi əməli ola bilər. bunlar aşağıdakılardan ibarətdir:

1. Məsrəf xərcləri (əmək haqlarının və əmək haqqından əlavə haqların ödənilməsi ilə bağlı xərclər);

2. Cari xərclər (subsidlər, cari ödəmələr, sabit mülkiyyətdən gəlirlədən əlavə məsrəf xərcləri).

3. Daxili həcmi istehsala olan ümumi xərclər.

Təcrübi araşdırmalarda dövlətin iqtisadi göstəricilərinin müəyyənləşdirilməsi üçün digər meyarların da istifadə edilir. Bu meyarlar vergi gəlirləri, qeyri-müstəqim vergilər, büdcə kəsrinin miqdarı və onun bütün büdcəyə olan nisbəti, dövlət xərclərinin dövlətin həcmi istehsalına olan nisbəti, dövlət sektorunun istehsal həcmi (ümumi istehsalın bir hissəsi olaraq), ümumi investisiya qoyuluşunda dövlət investisiya qoyuluşunun payı və s. ibarətdir. cədvəl 1.1-də 1974-2005-ci illər ərzində İranda müxtəlif sahələr əsasında dövlətin əsas iqtisadi göstəricilərini göstərir. 1974-cü ilin əvvəlinin götürülməsinin səbəbi neft gəlirlərindəki olan dəyişikliklər olmuşdur ki, bu da dövlətin iqtisadi göstəriciləri ilə əlaqədar ən yaxşı nəticəni əldə etməyə imkan verir. 1974 - 1975-ci illərdə neft gəlirlərinin artması və bunun davamlı olmasını təsdiq edir. Lakin inqilabdan sonra dövlətin iqtisadi gücü azaldı. İranda dövlətin ümumi xərclərinin ÜDM-yə nisbəti göstəricisinin araşdırılmasının sübut edir ki, inqilabdan sonra dövlətin



iqtisadi göstəriciləri kəskin dəyişmişdir. Lakin bu nisbətin inqilabdan sonrakı illərdə azalması İran iqtisadiyyatında dövlətin rolunun azalması mənasında deyildir. Çünki; dövlət özünün iqtisadiyyatdakı rolunu artıra bilər. Buna görə də müxtəlif göstəricilər əsasında nəticə çıxarmaq qeyri-düzgündür.

**Cədvəl 1.İranda 1981-2008-ci illər üzrə müxtəlif iqtisadi göstəriciləri.**

| *İllər* | *büdcə/GDP* | *Ümumi büdcə/GDP* | *xərclər/GDP* |
|---|---|---|---|
| 1981 | 39.0 | 21.8 | 35.4 |
| 1986 | 56.2 | 35.2 | 12.6 |
| 1989 | 63.0 | 40.7 | 4.3 |
| 1993 | 64.6 | 45.2 | 7.2 |
| 1997 | 81.1 | 56.9 | 9.8 |
| 2001 | 85.6 | 60.7 | 6.8 |
| 2005 | 78.0 | 58.0 | 19.8 |
| 2006 | 97.6 | 69.9 | 19.4 |
| 2007 | 95.2 | 68.9 | 19.6 |
| 2008 | 68.9 | 95.2 | 26.8 |

Mənbə: Mərkəzi Bank ؛iqtisadi zaman sıraları bazası

İranda dövlətin iqtisadiyyatdakı rolu ilə bağlı qeyd edilməli olan mühüm cəhət ictimai və iqtisadi işlərə nəzarət edilməsində dövlət qanunvericiliyinin rolunun nəzərə alınmasıdır.Lakin xatırlatmaq lazımdır ki, dövlətin iqtisadi göstəricilərinin araşdırmaq üçün dövlət tərəfindən tətbiq edilən qanunların iqtisadi proseslərdəki rolunu nəzərə almaq mümkün deyildir və adətən, bununla əlaqədar olaraq dövlətin ümumi xərclərini nəzərə almaq lazımdır.

Qabaqcıl müqayisəli təhlili. Dövlətlərin iqtisadi göstəricilərinin müqayisəsi bir çox suallara cavab verir.Qeyd edilən makrokeyfiyyət

göstəricilərinə, o cümlədən, naxalis daxili istehsal, işsizlik miqdarı, inflyasiya, övlətin ölçüləri, sövlətin məsrəf məxaricləri, iqtisadi inkişafa əsasən İranın iqtisadi mövqeyini dəyərləndirmək nəzərdə tutulan zaman kəsiyində regionun digər ölkələri ilə müqayisəsidə ölkənin iqtisadi mövqeyini ölçmək üçün münasib çərçivə ola bilər və eyni zamanda nəzərdə tutulan fərqlərin aradan qaldırılması üçün həll yolları göstərə bilər.

Aşağıdakı cədvəl İranın 2010-2012-ci illər ərzindəki makroiqtisadi göstəriciləri, 2012-ci il Beynəlxalq Pul Bankı (İMF) tərəfindən proqnoz verilmişdir, aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl2. İranın makroiqtisadi göstəriciləri**

| ***Title*** | ***dəyər*** | ***2010*** | ***2011*** | ***2012*** |
|---|---|---|---|---|
| Iqtisady artim | faiz | 5.9 | 2 | 0.4 |
| likvidlik artım | faiz | 26.7 | 23.8 | 15.9 |
| GDP | milyard dollar | 419 | 482 | 496 |
| Cari hesabların balansı | Faiz | 25.3 | 51.4 | 32.7 |
| ixrac dəyəri | milyard dollar | 116 | 137 | 140.8 |
| idxalın dəyəri | milyard dollar | 92.4 | 100.3 | 105 |

Mənbə: world economic outlook databases 2012(IMF)

İranın neft istehsalı. İran son illər ərzində regiondakı ən böyük neft istehsalçısı kimi tanınmışdır. 2009-cu ildə İranda neft istehsalı gündə 4199 min barel olmuş və bu rəqəm 2010-cu ildə 1.1 % artımla gündə 4245 min barel çatmışdır. İran 2011-ci ildə orta hesabla gündə dünya bazarına 2 milyon barel xam neft ixrac etmişdir. Mövcud statistikaya əsasən, 2011-ci ildə İranın xam neftinin 62 %-dən çoxu



Asiya ölkələrinə, 38 %-i isə dünyanın digər ölkələrinə, o cümlədən, Avropaya ixrac edilmişdir.

Daxili naxalis istehsal digər makroiqtisadi məhsuldarlıq göstəriciləri arasında. Daxili naxalis istehsal miqdarı ən mühüm göstəricilərdən biridir. Çünki bu göstərici bir ölkənin iqtisadi ölçülərini və onun istehsal imkanlarını göstərir. diqqət etmək lazımdır ki, bir ölkənin əhalisinin rifah və istifadəetmə səviyyəsi sırf olaraqdaxili naxalis istehsal vasitəsilə müəyyən edilmir. Bəlkə daha yaxşı göstərici adambaşına daxili naxalis istehsaldır ki, istehsalın miqdsarını hər nəfər üçün adambaşına olmaqla göstərir.

Mühüm sual bundan ibarətdir ki, İranın iqtisadi fəaliyyəti daxili naxalis istehsal, adambaşına daxili naxalis istehsal və iqtisadi inkişaf göstəriciləri tarixi baxımdan necə olmuşdur? 1977-cı ildə inqilabi vəziyyətin başlanması ilə adambaşına istehsal prosesi də geriləyərək azalmağa başladı. Ümumi istehsalın azalması ilə yanaşı, inqilab dövründəki səbatsızlıq və ardınca da İran-İraq müharibəsinin başlanması, əhalinin sürətli artımı adambaşına istehsalın azalmasını sürətləndirdi. adambaşına istehsal 1988-ci ildə 3.5 milyon riyaldan artaraq 2009-ci ildə 7 milyon riala çatdı. Maraqlı cəhət bundan ibarətdir ki, adambaşına istehsal miqdarı son illərdə 1976-ci ildəki adambaşına istehsal səviyyəsinə çatmışdır.

İranda istehsalın həcminin vəziyyətini dünyanın digər ölkələri ilə müqayisə etmək üçün İranın və Orta Şərqin digər ölkələrindəki 2007-ci ildən 2011-ci ilə qədər olan daxili naxalis istehsal aşağıdakı cədvəldə verilmişdir. İranın daxili naxalis istehsalı 2009, 2010 və 2011-ci illərdə ardıcıl olaraq 360, 419 və 428 milyard dollar olaraq göstərilmişdir. Bu rəqəmin 2012-ci ildə 496 milyard dollara çatacağı nəzərdə tutulur.

İran 2011-ci ildə regionun ikinci böyük iqtisadiyyatı olaraq tanınmış və onun bu mövqeyini 2012-ci ildə də qoruyub saxlayacağı gözlənilir.Ərəbistan 2011-ci ildə 577 milyard dollar daxili naxalis istehsalla regionun ən böyük iqtisadiyyatı sayılmaqdadır. BƏR 360 milyard dollar daxili naxalis istehsalla üçüncü yerdə dayanır, Liviya isə 235.7 milyard dollar daxili naxalis istehsalla dördüncü yerdə dayanır.

**Cədvəl 3**. **İranda istehsalın həcminin dünyanın digər ölkələri ilə müqayisə(milyard dollar)**

| Country | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Algeria | 134 | 172 | 138 | 161 | 191 | 207 |
| Bahrain | 18 | 22 | 19 | 22 | 26 | 28 |
| Egypt | 130 | 162 | 189 | 218 | 236 | 252 |
| Iran | 307 | 351 | 361 | 419 | 482 | 496 |
| Iraq | 57 | 87 | 64 | 81 | 115 | 144 |
| Jordan | 17 | 22 | 24 | 26 | 29 | 31 |
| Kuwait | 115 | 147 | 106 | 124 | 177 | 202 |
| Lebanon | 25 | 30 | 35 | 37 | 39 | 42 |
| Libya | 69 | 98 | 63 | 80 | 37 | 80 |
| Mauritania | 3 | 4 | 3 | 4 | 4 | 4 |
| Morocco | 75 | 89 | 91 | 91 | 99 | 100 |
| Oman | 42 | 61 | 47 | 58 | 72 | 79 |
| Qatar | 80 | 115 | 98 | 127 | 174 | 196 |
| Saudi Arabia | 385 | 477 | 377 | 451 | 578 | 652 |
| Sudan | 45 | 54 | 53 | 65 | 65 | 53 |
| Syrian | 40 | 53 | 54 | 60 | n/a | n/a |
| Tunisia | 39 | 45 | 44 | 44 | 46 | 46 |
| Emirates | 258 | 315 | 270 | 298 | 360 | 386 |
| Yemen | 22 | 27 | 25 | 31 | 34 | 37 |

Mənbə: world economic outlook databases 2012(IMF)

İranın və Orta Şərq ölkələrinin son onilliklərdəki orta iqtisadi inkişaf göstəricisi sonraki cədvəldə verilmişdir. 2011-ci ildə Qatar da



iqtisadi inkişaf 18.8 % olmuş və beləliklə də regionda ən yuxarı yerdə dayanmışdır. İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Omman isə daha sonrakı yerləri tutmuşlar. İran 2 % iqtisadi inkişafla Orta ŞƏrq regionunda 13-cü yerdə dayanır. Keçən ilə nisbətən mövqeyi aşağı düşmüş, Liviya, Yəmən, Sudan və Tunis kimi ölkələr isə mənfi iqtisadi inkişaf göstəricisi ilə axırıncı yerləri tuturlar.

İnflaysiya rəqəmi. Ümumiyyətlə, İran iqtisadiyyatında inflyasiya rəqəminin tarixi gedişini nəzərdən keçirməklə görürük ki, orta hesabla yuxarı və səbatsız inflasiya 50-ci illərin əvvələrindən İran iqtisadiyyatındaxroniki bir xəstəliyə çevrilmiş və xüsusi dövrlər istisna olmaqla, dövlət rəhbərləri müxtəlif dərəcələrdə bu xəstəliyin müalicə etmək üçün ardıcıl səylər göstərmişlər. Bütün dünya ölkələrində qiymətlərin ümumi səviyyəsinin qalxdığını nəzərə almaqla deyə bilərik ki, inflyaiya btün dünya səviyyəsinfə yeksələn gedişə malik olmuşdur. İrandakı inflyasiya rəqəminin dünyanın digər ölkələri ilə müqayisəsi onun daha yaxşı təhlili üçün imkanlar yaradılması və münasib həll yolları göstərəcəkdir. Bu baxımdan da İrandakı inflyasiya rəqəmi Orta Şərqin digər ölkələri ilə müqayisə edilir.

Ölkənin makro iqtisadiyyatı sahəsindəki siyasətlərdə işsizlik problemi. İşsizliyin yüksək səviyyəsi. Keçən illərdə İranda işsizlik səviyyəsindəki dəyişikliklər işsizlik miqdarının iki rəqəmli olmasını göstərir və bu bütün proqramların siyasətlərində diqqət mərkəzində olmuşdur və onun azalması 7 %-i tövsiyyə edir.

Dissertasiya işinin ikinci fəsili **“İran İslam Respublikası iqtisadiyyatının dövlət tənzimlənməsininmüasir vəziyyəti və onun təhlili”** kimi təqdim olunmuşdur. Bu fəsildə tədqiqatçı əsasən dövlət tənzimlənməsinin müasir vəziyyətini, İranda dövlət tənzimlənməsinin inkişaf dinamikası və iqtisadi qiymətləndirilməsini vermişdir.

İranın dövlət tarixi dövlətin və onun icra alətlərinin iqtisadiyyata müaxiləsi ilə bağlı diqqəti cəlb çəkəcək hadisələrlə zəngindir. Bu müdaxilələr tarix boyunca nəzərə çarpacaq iqtisadi dəyişikliklərə səbəb olmuşdur. Belə ki,bu proseslər bəzi dövrlərdə daha ciddi və bəzi dövrlərdə isə zəif olmuşdur. Dövlət müdaxiləsi sahəsindəki bu dəyişikliklər tədricən ölkənin iqtisadi vəziyyətinə uyğun olaraq baş vermişdir. Eyni zamanda onun gedişi dövlət müdaxiləsi səviyyəsinə münasibətdə, əlbəttə ki, ona olan zaman kəsimi münasibətində, dünya miqyasındakı mövqelərlə əlaqədardır.

dövlətin iqtisadiyyatdakı rolu ölkədə inflyasiyanın və işsizliyin yuxarı olduğu mövcud iqtisadi şərait səbəbləri, İran iqtisadiyyatının ən mühüm cari problemlərindəndir. Mövcud problemlərin araşdırılması və həll yollarının yeni tapılması olduqca zəruri olub öz həllini gözləməkdədir. İqtisadiyyatın tənzimlənməsi, məsələyə elmi baxımdan yanaşmaqla və mövcud imkanlardan istifadə etməklə dövlət şirkətlərinin özəlləşdirilməsi, dövlət və qeyri-dövlət sektorunun iqtisadi fəaliyyətinin müəyyənləşdirilməsi, alınmış nəticələrdən istifadə edilməsi sahəsində keçən illər ərzindəki siyasi proseslər nəzərə alınmaqla zəruri tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. İqtisadiyyatın ümumi sektorunun ən əsas mövzularından biri iqtisadi siyasətlərin təhlili və araşdırılmasında mühüm rol oynayan dövlətin iqtisadi potensialı məsələsidir. Dövlətin potensialı ilə bağlı iqtisadçıların əksəriyyəti eyni fikirdədir. Dövlətin büdcəsi mühüm iqtisadi və milli bir sənəd kimi dövlətin proqramları üzrə məqsədlərinin göstəricisidir.

İranin ümumi büscəsi abadlaşdırma və cari xərclər büdcəsi çərçivəsində olub, ümumiyyətlə dörd bölümdən – ümumi işlər, ictimai işlər, iqtisadi işlər və müdafiə işlərindən ibarətdir.

Ümumi işlərə üç tərkibli qüvvələrin əlaqələndirilməsinin tənzimlənməsi, qanunlar təsvib edilməsi, ölkə işlərinin idarə edilməsi, məkhəmə işlərinin idarə edilməsi, ölkədaxili siyasətlərin həyata keçirilməsi, ölkə daxilində təhlükəsizlik və nəzmin qorunub saxlanması, xarici əlaqələrin idarə edilməsi, maliyyə işlərinin idarə edilməsi, statistika, ümumi və texniki xidmətlər, kütləvi informasiya və rabitə, dövlət binaları və təsisatları, işçi qüvvəsi işlərinin idarə edilməsi daxildir.

İctimai işlərə təlim-tərbiyə, incəsənət və mədəniyyət, qiqiyena, müalicə və qidalanma, ictimai təminat və yardım müəssisələri, fiziki tərbiyə və gənclərin işləri, şəhər abadlaşdıerılması, kənd abadlaşdırılması və yenidən qurulması, yaşayış yerləri ilə təmin edilmə, ətraf mühitin qorunması, ətraf məntəqələrin inkişaf etdirilməsi ilə bağlı bir neçə məqsədli əməliyyatlar, nexniki və peşə təlimi, ali təhsil və tədqiqat işləri daxildir.

İqtisadi işlər kənd təsərrüfatı və təbii ehtiyatlar, su mənbələri, elektrik, sənaye, neft və qaz, mədənlər, ticarət, yol və daşınmalar, poçt və teleqrafdan ibarətdir



**Ölkənin büdcə mənbələrinin təmin edilməsi** Ölkənin büdcə mənbələri ümumi gəlirlər, ictimai gəlirlər, dövlət şirkətlərinin gəlirləri, banklar və dövlətə bağlı olan gəlirsiz müəssisələrdən ibarət olan ümumi mənbələrdən təşkil edilmişdir. Ümumi gəlirlər nazirliklərin, dövlət və maliyyə müəssisələrinin gəlirləri, dövlət şirkətlərinin istiqrazlarından gələn gəlirlər, inhisar və mülkiyyətdən gələn gəlirlər, eləcə də digər gəlirlərdən ibarət olub, ölkənin ümumi büdcə qanununda ümumi gəlirlər kimi göstərilir.

İran dövlətinin gəlirləri büdcədə təsvib olunmuş qərəmlər çərçivəsində dövlər xəzinəsinə köçürülür. Bunlar üç hissəyə bölünür – vergi gəlirləri, neft satışından əldə edilən gəlirlər və başqa gəlirlər. Dövlətin ötən illər ərzində əldə etdiyi gəlirlər aşağıdakı cədvəldə verilmişdir.Göründüyü kimi, 1986-ci ildə dövlətin bütün gəlirlərinin təxminən 25 %-ni neftin satışından əldə etdilmiş gəlirlər təşkil edir ki, ötən illər ərzində, təxminən, ən aşağı rəqəmdir. Bunun da səbəbi zorla qəbul etdirilmiş müharivə və ölkəyə qoyulmuş neft sanksiyaları, həmçinin neft çıxarılan ərazilərdəki bombardmanlar, düşmənlər tərəfindən neft daşıyan gəmilərə hücum edilməsidir. Bu ildə ölkə gəlirlərinin 60 %-ni vergi gəlirləri və 15 %-ni digər gəlirlər təşkil edir. Müharibənin qurtarması və ondan doğan problemlərin aradan qaldırılması, istehsal imkanlarının yaranması və neft ixracının mümkün olması ilə bu nisbət dəyişdi və neft gəlirlərinin payı digər gəlirlərə nisbətən artdı. Belə ki, 1991 və 1994-cü illərdə özünün ən yüksək həddinə çataraq 70 % təşkil etdi. Bu dövr yenidən qurma və müharibənin vurduğu ziyanların aradan qaldırılması dövrü idi. Bundan sonrakı illərdə ölkədə nisbi səbat yaranmasıyla və yenidənqurma fəaliyyətlərinin başa çatması ilə neft gəlirlərinin payı getdikcə azalmağa başladı. Belə ki, 1998-ci ildə dünyada neftin qiymətinin sürətlə düşməsi ilə eyni zamanda 42 %-ə çatdı ( İranın hər barel yüngül nefti 12 dollar idi) və sonrakı illərdə yenidən artmağa başladı və 2003-ci ildə 60 %-ə çatdı. Sonra yenidən düşməyə başlayaraq 2007-cı ildə 37 %-ə çatdı.Araşdırdığımız illər ərzində neft gəlirlərinin payının artması və ya azalmasına uyğun olaraq vergi gəlirləri də artmış və ya azalmışdır. Nəzərdə tutduğumuz illər ərzində vergi gəlirlərinin ən aşağı miqdarı 1993-1996-ci illərə aiddir. Bu illərdə neft gəlirlərinin payı artmışdır. Vergi gəlirlərinin ən yüksək payı da məhz 1998-ci ilə aiddir.

**Abadlaşdırma kreditləri –** abadlaşdırma kreditləti milli abadlaşdırma kreditləri çərçivəsində vilayət abadlaşdırma kreditləri və digər müxtəlif

kreditlər olaraq nəzərdə tutulur. Abadlaşdırma kreditləri ilə bağlı daha geniş şəkildə 3-cü fəsildə bəhs ediləcəkdir. Bu fəsildə sırf olaraq abadlaşdırma kreditləri ilə daha çox tanışlıq üçün 2011-cı il gözdən keçirilir. 2011-cı ilin büdcəsində milli layihə kreditləri müxtlif yerlərdə və vilayət xərcləri ardıcıl olaraq 15,45 və 44-cü yerlərdə durur.

Bölümlər əsasında dövlətin ümumi kreditlərinin müqayisəsi göstərir ki, rifah və ictimai təminat bölümü 359,1 trilyon rial (ümumi kreditlərin 23,2 %-i), təhsil bölümü 182,1 trilyon rial (ümumi kreditlərin 11,8 %-i), ticarət və kooperasiya bölümü 151,9 trilyon rial (ümumi kreditlərin 9,8 %-i),daşınmalar bölümü 102,8 trilyon rial(ümumi kreditlərin 6,6 %-i), su mənbələri bölümü 91,9 trilyon rial (ümumi kreditlərin 5,9 %-i), enerji bölümü 91,3 trilyon rial (ümumi kreditlərin 5,9 %-i),müdafiə bölümü 90,3 trilyon (ümumi kreditlərin 5,8 %-i) olmaqla ən çox paya malikdir

Öncə də şərh edildiyi kimi, dövlətin fəaliyyətlərini üç hissəyə bölmək olar: büdcə, büdcədənkənar (siyasətlər və qanunların tənzimlənməsi) və dövlət rəhbərliyi. Aparılmış tədqiqatların əksəriyyətində yalnız dövlətin büdcə fəaliyyətləri araşdırılmışdır. Lakin, dövlətin büdcədənkənar və rəhbərlik fəaliyyətllərinin daha yüksək olduğu inkişaf etməkdə olan ölkələrdə dövlətin fəaliyyətlərinin iqtisadiyyatın inkişafına təsirini məhdudlaşdırmaq olmaz. Məsələn, təbii ehtiyatları (xüsusilə də neft) olan ölkələri qeyd etmək mümkündür. Bu ölkələrdə neftin ixracından əldə edilən gəlirlər dövlətin iqtisadiyyata təsirinin artmasına səbəb olur. Eyni zamanda dövlət iqtisadiyyatının bütün səviyyələrinə (makro və mikro birlikdə) müdaxilə etmək imkanı əldə edir. Belə ki, bu ölkələrdə dövlətin potensial təsirini müəyyən etmək üçün büdcəxarici meyarları da nəzərə almaq lazımdır. Dövlət ən ümumi şəkildə iqtisadi fəaliyyətə üç istiqamətdə müdaxilə edir:

1. Hökumətin hazırki və gələcək nəsillərin iqtisadi mənafeyini müdafiçisi mövqeyində;

2. Onun layihələrini dəstəkləyən cəmiyyətin mənafelərinin tam təmin olunması halında; əksəriyyəti tərəfindən seçilən məqam mövqeyindən;

3. Müəssisə sahibi böyük sahibkar mövqeyində, inhisar fəaliyyətinə yol verdiyi halda və s.

Yuxarıda göstərilən ümumi formalardan başqa, büdcə alətlərindən istifadə etməklə qanunv ericiliklə digər iqtisadi proseslərə də müdaxilə



etməyə səy göstərilir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

- məhsullar və xidmətlərə, xüsusilə də ümumişlək məhsul və xidmətlərə, qiymət təyini;
- idxalat və ixracat sektorunda düzgün siyasət;
- pul və kredit qərarlarına və bank yardımlarının realizasuyası siyasətlərinə müdaxilə;
- iqtisadi təsrləri olan digər qərarlar və qaydaların tərtibi və s;

Təbiidir ki, bəzi hallarda dövlətin iqtisadi proseslərə müdaxiləsi azalmalıdır. Görünür ki, haqqında bəhs edilənləri İrana tətbiq etməklə dövlətin iqtisadi fəaliyyətlərə müdaxiləsinin azaltmaq mümkündür.

Qeyd etmək lazımdır ki, ölkənin ümumi büdcəsinin vergi gəlirlərinə olan nisbəti arasındakı fərq dövlətin vergi gəlirləri ilə dövlətin ümumi büdcəsi arasındakı əlaqənin əhəmiyyətli olması baxımından daha çox diqqəti cəlb edir. Çünki əgər dövlətin xərcləri vergi toplanması hesabına təmin edilərsə, bu da çox effektivdir. Çünki investisiya qoyuluşunun artması səbəbilə gəlir faizlərinin azalması ilə pulun həcminin artması arasındakı nisbət daha çox inflyasiya təsirlərinə malik olacaqdır.

Dövlətin büdcə rolundan başqa, dövlətin ölkənin iqtisadiyyatındakı büdcəxarici roluna da diqqət etmək lazımdır. Dövlətlər son illərdə həyata keçirdikləri müxtəlid siyasətlər, qaydalar, qanunlar və qərarlar vasitəsilə makro və mikro iqtisadiyyata təsir göstərirlər Bu bölümdə İran iqtisadiyyatına dövlətin büdcəxarici müdaxiləsinin həcmi dövlətin maliyyə və pul siyasətləri əsasında araşdırılacaqdır.

Pul siyasətləri. Mərkəzi Bank bu siyasətlərin həyata keçirilməsi yolu ilə ailələrin məsrəf ülgülərinə, müəssisələrin istehsalına və son olaraq da inflyasiyaya təsir göstərməyə səy göstərir. İranda pul siyasətlərindən istifadə etməklə istehsal və kapital qoyuluşu sektorlarının nağd pula olan ehtiyacını təmin etməklə, inkişaf proqramlarında göstərilən nağd pul və inflyasiyanın qarşısını almaq məqsədilə münasib olmayan pul genişlənməsinin qarşısını almağa çalışırlar. iki növ pul siyasətləri vasitələrini ayırmaq mümkündür. İranada pul siyasətləri vasitələri yuxarıdakı bölgüyə əsasən aşağıadakı şəkildə həyata keçirilir.

Bank faizləri tariflərinə müstəqim nəzarət vasitələri ölkəmizdə sələmsiz bank əməliyyətları qanunun icrası ilə və ya sabit

məhsuldarlıqlı müqavilələr və ortaqlıqla, bank yardımları verilməsindən doğan gözlənilən məhsuldarlıq miqdarı və gəlirlərin müəyyən edilməsi qaydaları, maksimum və minimum gəlirlər və ya nəzərdə tutulan məhsuldarlıq "Sələmsiz bank əməliyyatları qanununun" 3-cü fəsli ayinnaməsinin 2-ci maddəasinə uyğun olaraq Pul və Kredit Şurasının öhdəsinə düşür. Eyni zamanda adı çəkilən qanunun 4-cü fəsli ayinnaməsinin 3-cü maddəsinə uyğun olaraq Mərkəzi Bank investisiya qoyuluşu və ortaqlıq layihələrinin seçilməsi üçün gəlirin (məhsuldarlığın) minimum həddini təyin edə bilər, gözlənilən gəlirin ən yüksək həddini və ya tələb edilən maksimum miqdarı, bank yardımları verilməsinin digər növləri üçün ehtimai məhsuldarlıq miqdarının təyin edilməsinə müdaxilə edə bilər. Bütün keçən illər ərzində pul siyasət-nəzarət paketləri Mərkəzi Bank tərəfindən elan edilmişdir. Burada cari il ərzində depozit müddəti ərzində bank depozitlərinin illik gəlir miqdarından bəhs edilir.

Son illərdə depozitlərin gəlirləri azalmışdır. Dövlət rəhbərlərinin iqtisadiyyatın inkişafı üçün lazımi bazislərin yaradılması fikrində olduqları və işçi və sənətkar təbəqəsi üçün pulun tamamlanma xərclərinin azalması ilə bağlı qəti fikirdə olmalarına baxmayaraq, onların bəzi tədbirlərinin, o cümlədən bank gəlirlərinin miqdarının aşağı saxlanması və bank depozitlərinin yenidən azaldılması kimi tədbirlər bu məqsədlərin yerini yetirilməsinə imkan verməyə və beləliklə də bank sistemi üçün çox baha başa gələ bilər. Əslində bank gəlirlərinin miqdarının aşağı saxlanması hər şeyin yardım alanların xeyrinə qurtarmasına səbəb olur, lakin pullarını banklarda saxlayanlara zərur gətirir və depozit sahibi çox az gəlir əldə etməklə yanaşı. hər gün pulunun dəyəri də düşür. Belə bir şəraitdə bank sistemi səbatsızlığa (nağd pulun idarə edilməsi və öz kreditlərində) düçar olur. Çünki əmanətçilər tərəfindən yardımlar almaq istəyi çoxalır. Belə ki, bank sistemində əmanətçilərlə yardımlar verilməsi arasında tarazlıq yaradılmalıdır. Bunun səbəbi bundan ibarətdir ki, əmanətçilərin banklara depozit qoymaları üçün iqtisadi izahları olmalı və banklar da istəyənlərə yardımlar verə bilmək üçün problemlərlə qarşılaşmamalıdır. Bank depozitlərinin gəlirləi azaldıqda, əmanətçilər cəmiyyətdəki inflyasiya miqdarını nəzəra almaqla banklara depozit qoymağa daha az meyl göstərəcəklər. Nəticədə depozitlərin həcmi və bankın yardımlar vermək üçün olan mənbələri azalacaqdır. Çünki pul sahibləri və iqtisadi banklar yalnız o zaman qeyri-rəsmi bazara tərəf sövq edilir ki, bu



məsələ banklar və maliyyə-kredit müəssisələri ilə yanaşı, pul bazarının qeyri-mütəşəkkil və qeyri-qanuni qurumları da formalaşmış olsun. Bu sırada istehsal və sənaye sektorları da öz payını alacaq, nağd pul və mənbələrin azlığı istər-istəməz onları da qeyri-rəsmi bazara doöru yönəldəcəkdir. Mərkəzi Bank və dövlət bank gəlirlərinin miqdarını bazar sisteminə tapşırılmalıdır ki, bank gəlirəri miqdarı istesal və istehlakın təsiri ilə müəyyən edilsin. Bank gəlirlərinin miqdarı elə bir şəkiləd müəyyən edilməlidir ki, əmantçilər üçün zərərli olmasın.Bamk sistemi elə bir şəkildə hərəkət etməlidir ki, əmanətçinin əmlakının dəyəri , hətta əgər gerçək gəlirə çatmasa belə, qorunub saxlansın. Əgər mövcud şəraitdə əmanətçilərə inflyasiya miqdarında daha aşağı gəlir verilməsindən bəhs edilərsə, görərik ki, əmanətçilər zərər çəkmişdir. Belə ki, bank mənbələrinin həcminin azalması və onun bankdan xaricə göndərilməsi və bunların dəllal bazarlarında iştirak etmək gəlirin göstərişlər əsasında müəyyən edilmiş gəlir miqdarlarının nöqsanlı olduğunu göstərəcəkdir. Ona görə ki bəzi mütəxəssislərin fikrincə, inflyasiya rəqəmi, depozit gəlirləri və yardımlar arasında pilləkənvari əlaqə vardır ki, həm əmanətçilər zərər çəkməsinlər və həm də banklar əmanətçilərin gəlirlərini ödəməkdən başqa, öz xərclərini də ödəyə bilsinlər.

Qanuni depozitlərin nisbəti: qanuni sepozitlərin nisbəti də Mərkəzi Bankın pul siyasətlərindən biridir. Banklar yaranmış borclar və onlarda saxlanan fərdlərin depozitlərinin nisbətini mərkəzi bankda saxlamağa borcludur. Mərkəzi bank qanuni depozitlərin nisbətini artırmaqla bankların yardımlarının həcmini dondurmalı və onu azaltmaqla bankların kreditlərini genişləndirməlidir. Pul və bank qanununun 14-cü maddəsinə əsasən, qanuni depozitlərin miqdarı 10 % az və 30 %-dən çox olmayacaqdır. Ola bilsin ki, mərkəzi bank fəaliyyətin növü və tərkibinə görə banklar üçün müxtəlif fərqlər müəyyən edə bilər.

Kredit müəssisələrinin depozt nisbətləri (ixtisaslı banklar istisna olunmaqla) 2011-cı ildə müxtəlif depozitlər üçün aşağıdakı cədvəldə olduğu kimi müəyyən etmişdir. Qanuni depozitlərin müxtəlif ixtisaslı bankların depozitlərinə olan nisbəti əvvəlki ildəki rəqəmə uyğun olaraq müəyyən edilmişdir.

İİR Mərkəzi Bankının siyasi-nəzarət siyasəsti azalma növündən olan qanuni ehtiyat miqdarı siyasəti olub, əslində genişlənən pul siyasəstidir. Əlbəttə, bu siyasət bank depozitlərinin gəlir miqdarının azalması ilə təzad təşkil edir. Bankların daha çox mənbələri əlçatanlığı

ilə bağlı olaraq Mərkizi Bank depozitlərin azalmasını (depozitlərin gəlir miqdarının azalması səbəbilə) qanunu ehtiyatlar miqdarının azalması yolu ilə təmin edir. Buna görə də bank vasitəsilə alınmaların əlavə miqdarlarının bahalaşması səbəbilə yeganə mümkün yol sayıla bilər. Bu məsələ bank sistemində nağd pulun riskinin artması mənasında ola bilər. Daha sonra indiyə qədər Mərkəzi Bankın 2008-2011-cı illərdə nəzarət siyasətləri paketində istifadə edilənlərin müqayisəsi aparılır.Mərkəzi bankın illik bildiriş siyasətləri paketlərində kredit siyasətlərindən də bəhs edilir.Bu siyasətlərdə Mərkəzi Bank kreditlərin ödənilməsi qaydalarını bildirir və yardımların gəlir miqdarını təyin edir.Kredit müəssisələrinin2011-cı il bildiriş siyasətlərində istehsal və məşğulluq sektoruna yardımlar verilməsinə üstünlük verilməsi üçün banklar mükəlləfiyyət daşıyır.Eyni zamanda ixtisaslaşmış banklar öz yardımlarının minimum 90 %-ni özünün əsas aparıcı istiqamətində verməyə borcludur.

Gömrük siyassətləri Günümüzdə tarazlaşdırılmış iqtisadi siyasətlər, dövlətlər tərəfindən istehsal və ticarət bütün ölkələrdə və quruluşlarda həyata keçirilir. Hətta iqtisadi quruluşlarda belə dövlətlər bəzi hallarda əsas dəyişkənlərin dəyişkənliyinin qarşısını almaq üçün bazara müdaxilə edir və tənzimləyici siyasətlər icra edirlər. Bu siyasətlərə misal olaraq eyni zamanda pul siyasətlərinə də işarə etmək olar. İnkişaf etməkdə olan ölkələrdə, o cümlədən İranda, iqtisadi tarazsızlıqlar daha çoxdur. Təbii, dövlətin istehsal və istehlakı tarazlaşdırmaq və qiymətləri sabitləşdirmək üçün bazara müdaxiləsi də çoxdur. Bu baxımdan bazarın tənzimlənməsi və bazarda tarazlığın yaradılması və istifadəçilərin və buna uyğun olaraq da istehsalçıların mənbələrini təmin etmək üçün siyasətlərin həyata keçirilməsi ölkələrdə xüsusi əhəmiyyətə malikdir. Bazarın tənzimlənməsi qaydalar, siyasətlər və strategiyaların məcmusundan ibarət olub, istehlakçılar, istehsalçılar və paylayıcılar kimi bazar qurumlarını müdafiə etmək üçün istifadə edilir. Bu məqsədlə istehlak və iostehsal məhsullarına təsir göstərən amillərin dəyişdirilməsi üçün siyasətlər həyata keçirilir. Bu baxımdan da bazar tənzimlənməsinin olduqca geniş bir tərifi vardır və müxtəlif üsullarla icra edilə bilər. Amma məcmu olaraq istehsal və istehlakın miqdar və qiymətinə nəzarət və onun artırılması, istehsalçıların gəlirlərinin qorunması və ya təsbit edilməsi və istehlakçıların müdafiə edilməsindən ibarətdir. Bu siyasətlərdən biri gömrük siyasətləridir.



Gömrük sistemi və ya İran tariflər sistemini gömrük hüququ, ticarət gəliri, məhsul sifarişi haqqı, fərqin alınması və gömrük haqqına bölmək olar ki, istər gəlir, istərsə də müdafiə baxımından müxtəlif təsirlərə malikdir. Müdafiə baxımından sırf olaraq bu nöqtəyə işarə etmək istəyirik ki, tariflər qeyri-müstəqim vergi növü sayılır və İranda mövcud statistikaya əsasən, vergilərin əsas hissəsi gömrük hüququnda göstərilən idxalat vegiləri və ticarət gəlirləridir. Bunlardan hər ikisinin də ortaq məqsədi vardır, lakin Gömrük Hüququ qanununa uyğun olaraq, 1998-ci ilə qədər qanunvericilik orqanlarının səlahiyyətinə daxil idi, halbuki ticarət gəliri Nazirlər Kabinetinin gəlirlərinə daxil idi və hazırda da daxildir. Buna görə də ticarət gəlirlərinin dəyişkənliyi İran gömrük sistemində onun təsvib edilməsinin asanlığı baxımından gömrük hüququndan yüksəkdir. Dövlər üçün gəlirin alınması zəminində gömrüyün ikinci məqsədi sayılır. Əslində İran gömrüyü gömrük hüququ adı alatında ticarət gəlirlərinin, gömrük haqlarının və s. dövlət gəlirlərinin ödənilməsi məsuliyyətini daşıyır və bunların hamısı xarici ticarətə olan vergilər sayılır. Aşağıdakı cədvəl keçən illər ərzində idxalata olan vergilərdən əldə edilən gəlirləri göstərir. Cədvəldən göründüyü kimi, bu sektordan alınan gəlirlər 1978- 2007-ci illərdə 42 %-dən 25 %-ə qədər olmuşdur. İran gömrüyü tərəfindən aparılan siyasətlər maksimum yardımları təmin etməklə və qeyri-neft məhsulları ixracatçılarının vəzifələri çərçivəsində razılığının əldə edilməsinə və gömrük imkanlarından istifadə etməklə strateji məqsədlərə çatmaq üçün ölkənin ixracatının irəliləyişini təmin edir.

Dissertasiya işinin üçüncü fəsili “**İran-İslam Respublikasinda iqtisadiyyatin dövlət tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri**” kimi adlanır. Bu fəsildə dissertant problemlə əlaqəli olan İranda iqtisadi sahələr üzrə dövlət subsidiyalarının artırılması istiqamətləri, bu prosesdə dövlətin qiymət və vergi siyasətinin təkmilləşdirilməsi məsələlərində rolu və investisiya təminatının təkmilləşdirilməsi məsələləri tədqiq etmişdir.

Bazar iqtisadiyyatında dövlətin xüsusi bir məhsula daha çox ehtiyacı olarsa, bu məhsulu bazar qiyməti ilə istehsalçıdan alır. Halbuki planlı iqtisadi sistemdə dövlətin müəyyən bir məhsula daha çox ehtiyacı olduqda onun istehsal edilməsi haqqında göstəriş verir və onun qiymətini özü müəyyənləşdirir. Lakin nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatı həmişə əhalinin nəzərdə tutduğu bütün münasib şəraiti təmin etmir və bəzən bazar mexanizminin yararsızlığı ilə qarşılaşır.

Bəzi iqtisadi fəaliyyətin xarici müsbət və mənfi təsirləri, ictimai bərabərtsizliklər və satış inhisarı bazar iqtisadiyyatı sisteminin iqtisadi sabitlik yarada bilməməsinin səbəblərindəndir. Çünki dövlətlər müxtəlif iqtisadi vasitələrdən (maliyyə siyasətləri, pul siyasətləri və gəlirlər) istifadə etməklə bazar sisteminin təsirlərini kompensasiya edir. Dövlətlərin iqtisadiyyatı tənzimləmək üçün istifadə etdikləri vasitələrdən biri də subsidiyalar verməsidir. Subsidiyaların ödənilməsinin iqtisadi, gözəçarpacaq ictimai və siyasi təsirləri də vardır.Məsələn,subsidiyaların ödənilməsi eyni zamanda dövlətin iqisadiyyatdakı rolunu artırır. Başqa sözlə desək, dövlət bu alətdən istehlakçıların, xüsusilə də aztəminatlı istehlakçıların yanında nüfuzunu yüksəltmək üçün istifadə edir. Digər tərəfdən, təbii ehtiyatlara malik ölkələr adətən, rifah halını yaxşılaşdırmaq üçün subsudiyaları artırır, lakin gəliri az olduqda və dövlət büdcə kəsiri ilə qarşılaşdıqda isə subsidiyaları azaldır. Bu da şübhəsiz, siyasi və ictimai böhranlar üçün zəmin yaradır.

Neft istehsal edən və təbii ehtiyatlara əsaslanan ölkələr ən asan yolu, yəni cəmiyyətin bütün üzvlərinə subsidiyalar ödənilməsi siyasətini həyata keçirirlər. Bəzən subsidiyalar müxtəlif problemlərə, o cümlədən mənbələrin yararlılığının müəyyənləşdirilməməsi, istehlakın artmasına,iqtisadi korrupsiyanın yaranmasına, iqtisadiyyatda effektivliyin azalmasına gətirib çıxarır. Subsidiyalar bir tərəfdən, qiymətlərə təsir etməklə, digər tərəfdən də iqtisadi inkişafı azaltmaqla büdcə kəsri və ictimai xərclərin artması kimi problemlər yaradır. Ölkəmizdə subsidiya ödənişləri sisteminin yanlışlığı üzündən ildə olduqca böyük bir məbləğ subsidiya şəklində ödənilir ki, bu da ölkənin iqtisadi inkişafına təsir göstərir. Birbaşa olmayan subsidiya ödəmələri sistemindəki nöqsanlar subsidiyaların təsirliliyini, daxili istehsal məhsullarının dünya bazarlarındakı rəqabət gücünü azaldır, istehlakı hədsiz dərəcədə artırır, ekologiyanın korlanmasını gücləndirir, iqtisadi pozuntular, xüsusilə də subsidiyaları məhsulları qaçaqçılığı üçün zəminlər hazırlayır. Bunlar subsidiya ödənişləri sisteminin islah edilməsinin zəruri olduğun göstərir.

Dövlət tərəfindən investisiya qoyuluşunu yaxşılaşdırmaqla yanaşı, investisiya qoyuluşu ilə əlaqədar islahatların aparılması da zəruridir. İlk addım illik büdcədə nəzərdə tutulmuş investisiya qoyuluşunun beşillik proqramların məqsədləri ilə uyğun olmasıdır.İnqilabdan sonra və müharibə qurtardıqdan sonra iyirmi illik



proqram əsasında ölkənin beşillik inkişaf proqramları hazırlandı və ölkənin ümumi iqtisadi siyasəti elan edildi. Lakin illik büdcələr hazırlanarkən beşillik proqramların siyasətləri kənarda qaldı və investisiya qoyulması səmtinə yönəldi.İkinci addım investisiya qoyulması üçün güclü texniki və iqtisadi əsaslandırılmaların verilməsindən ibarətdir. Ölkədə icraya başlanmasından uzun zaman keçən və yarımçıq buraxılmış çoxlu sayda abadlaşdırma layihələri mövcuddur. Bu layihələrin bəziləri yetərincə kreditlərin olmaması səbəbilə yarımçıq buraxılmışdır. Sonrakı addım olaraq layihələrin əhəmiyyət baxımından üstünlük verilərək icra edilməsidir. Layihələrin tam kredit təminatı olmadan icrasına başlanması və ya layihələrin eyni zamanda icrasına başlanması da mövcud problemlərdəndir. Layihələrin üstünlük dərəcəsi müəyyənləşdirilməli və daha çox üstünlük verilən layihələr öncə icra edilməlidir. Maliyyə mənbələrinin məhdud və dövlətin gəlirlərinin əsaslı dərəcədə neft satışından əldə edilən gəlirlərə bağlı olduğundan neftin qiymətindəki dəyişiklik gəlirlərin azalmasına və nəticədə layihələrin icrasının dayandırılmasına səbəb olur. Ümumi xərclərdə investisiya qoyuluşu kreditlərinin payının artırılması növbəti zəruri addımlardandır. Qeyd edildiyi kimi, bir tərəfdən, xərclərin inkişaf xüsusiyyətli olması, digər tərəfdən, cari xərclərin inflyasiya yaratmaq mahiyyəti daşıması səbəbilə, dövlətin cari xərclərinin azaldılması və investisiya qoyuluşu xərclərinin artırılması yüksək əhəmiyyətə malikdir. Bu məsələnin gerçəkləşdirilməsi üçün dövlətin xərclərinin azaldılması ilə yanaşı, özəlləşdirmənin həyata keçirilməsi dövlətin bazis qurumlarında investisiya qoyuluşu üçün imkan yaradacaqdır.

Dövlətin iqytisadi tənzimləmədə ən mühüm yolu dövlətin özəl sektora müdaxilə etməməsidir. Digər tərəfdən,dövlət özəl sektora məxsus olan sahələrdən kənara çəkilməli və bu işlərə heç bir şəkildə müdaxilə etməməlidir.Dövlət bazara və daxil olması zəruri olmayan sahələrə güc tətbiq etmir və belə işlərdə hədər verməmək üçün öz xərclərinə nəzarət edir.Yəni dövlətin əsas funksiyalarından biri də dövlətin xərclərinin azaldılmasıdır ki, özəl sektor vasitəsilə və cəmiyyətin əksər ehtiyaclarının bu sektor tərəfindən təmin edilməsilə həyata keçirilir. Əks halda özəl sektor və dövlət bir-birinin əksi olan iki ayrı-ayrı istiqamətdə hərəkət edir. Təcrübələr göstərir ki, əgər dövlətin kiçildilməsi üçün səy göstərilməzsə, özəl sektor da nəticədə müvəffəqiyyətli olmayacaqdır. Günümüzdə özəl sektorumuz zəifliyi səbəbilə kifayət qədər təsirə malik ola bilmir. Bunun da səbəbi hazırda

özəl sektorumuzun bir çox sahələrdə investisiya qoymağa meylli olmamasından doğur. Bu problem əmək qanununda, ictimai təminat qanununda, dövlətin müdaxiləsi və nəzarətində dəyişikliklər edilməsi və müxtəlif göstərişlər verilməklə həll edilə bilər. Əgər özəl sektorumuz məhsuldar və güclü dövlət müəssisələrini könüllü olaraq alarsa, cüzi məsələlər üçün narahat olmağa dəyməz. Əsas məqsədimiz özəl sektorun inkişaf etməsi üçün bütün maneələrin aradan qaldırılması və daha yararlı olmasından ibarətdir. Bu zaman xaricdə yaşayan iranlıların mənbələrindən də istifadə edə bilərik. Özəl sektorun məhsuldarlığı artdığı zaman bu məhsuldarlıq əhalinin rifah halının yaxşılaşmasına səbəb olacaqdır. Nəticədə yoxsulluq azalacaq və ölkənin ixracetmə imkanları da yüksələcəkdir. İxracatın bu artımı valyuta mənbəyini təmin etməklə yanaşı, tək-tək hər birimizin neft gəlirlərinə olan bağlılığımıza da azaldacaqdır. Bu müsbət və yaradıcı bir hərəkət üçün münasib bir ritm ola bilər. Əlbəttə, bütün bu fəaliyyətlər işlərin mərhələlərinin düzgün və diqqətlə yerinə yetirilməsi ilə şərtlənir. Çünki, əgər keçənlərin təcrübəsini təkrar edərək işləri tədriclə korlamaq istəyiriksə, yaxşı və yaradıcı nəticələr əldə edə bilməyəcəyik. Ölkənin bütün işləri üçün şəffaf zəruriyyət və qanunlara malik olmaq işlərin icrası üçün əsas şərtdir. Buna görə də bu qaydaları yerinə yetirmək istəyən bütün qurumlar olduqca effektiv iqtisadi bünövrə ilə təchiz edilməlidir. Bu bünövrə dövlət xaricində olmalı, lazımi imkanlara və kifayət qədər biliyə sahib iqtisadçılar burada fikir və layihələşdirmə nüvəsi olaraq onların yanında işləri icra etməlidir. Özəlləşdirmənin tam şəkildə həyata keçirilməsi və iqtisadi inkişaf əldə edilməsi özəl sektorda investisiya qoyulmasındakı Əmək qanunun, İctimai təminat qanununun, vergi sistemi və bank sisteminin kredit və yardım islahatlarindan doğan problemlərin həlli ilə bağlıdır. Eyni zamanda hal-hazırda özəlləşdirmənin ən önəmli problemi idarəetmədir. Malikiyyətin rolu idarəetməni özəl sektora verənə qədərdir. Dövlətin mülkiyyəti nə qədər az olarsa və dövlətin fəaliyyəti nəzarətetməyə qədər məhdudlaşarsa,daha yaxşıdır. Bu halda dövlət səhmlərin əksəriyyətinə malik olmadığından idarə edə bilməyəcəkdir.

**Tədqiqat zamanı əldə edilmiş nəticələrdən bəzilərini qeyd edək:**

1. Neft və qaz ehtiyatları gələcək nəsillər üçün ardıcıl və davamlı gəlir gətirə biləcək kapitala çevrilməlidir. Bu baxımdan büdcənin neftdən gələn gəlirlərə əsaslanmasını dayandırmaq lazımdır.



2. Mülkiyyət hüququ, xüsusilə də xüsusi mülkiyyət hüququnun əsası qoyulmalıdır. Mövcud vəziyyət investorların kapitallarının təhlükəsizliyini kifayət qədər qarantiya etmir.

3. Keçən 16 il ərzində özəlləşmənin gedişinə nəzər saldıqda görünür ki, bu illər ərzində özəlləşən sənaye sahələri və ya sektorları əsasən, yarımdövlət və ya ümumi qurumların əlindədir. Təlatümlü birja bazarları və kifayət qədər nəzarətin olmaması da geriyə doğru hərəkətə və insanların uzaqlaşmasına səbəb olmuşdur ki, bu da əsas məqsəd olan demokratik iqtisadiyyatı bir az da uzaqlaşdırmışdır. Buna görə də iqtisadi demokratiya əldə edilməmiş və insanların əlində olanlar isə olduqca kiçik və əhəmiyyətsizdir. Beləliklə, demək olar ki, insanların taleyi onların öz əlində deyil. Rəqabətsiz və inhisarın olduğu iş mühiti olduqca çox problemlər ortaya çıxararaq, əsasən, sektorlara girişin yolunu daraltmış və hər kiçik vahidi bir neçə il zəhmətdən sonra müflis etmiş, ya da zəifləmiş, kiçiltmiş, effektivsizləşdirmiş və beləliklə də onları qeyri-rəqabət vəziyyətində saxlamaqdadır. Dövlət iqtisadi-maliyyə və texnikanı idarə edən olaraq səhnədə görünməməli, bəlkə qanunların düzgün icrasının qarantiyası kimi çıxış etməlidir.

4. Dövlətin təsir imkanlarının və dövlət idarəetməsinin azaldılması üçün dövlət şirkətlərinə yeni investisiya qoyuluşunun qarşısının alınması, dövlət şirkətlərinin özəlləşdirilməsinin hədəfləndirilməsi, qeyri-dövlət sektoruna investisiya qoyulmasının inkişaf etdirilməsi üçün lazımi zəminlərin yaradılması, iqtisadiyyatda iştirakı inkişaf etdirmək məqsədilə qeyri-dövlət sektorunun müdafiə edilməsi kimi məsələlərə riayət edilməsi ilə şirkətlərinin özəlləşdirilməsi siyasətinin həyata keçirilməsi tövsiyyə edilir.

5. Dövlətin təsir imkanlarınınazaldılmasının üsullarından biri də dövlətin xərclərinin azaldılmasıdır. Bu istiqamətdə uzunmüddətli bir dəyişkən olaraq neftin qiyməti iqtisadiyyatın inkişafına mənfi təsir göstərir. Bu baxımdan iqtisadiyyat elə bir şəkildə yönləndirilməlidir ki, dövlətin və iqtisadiyyatın neft gəlirlərindən olan asılılığı azalsın. Yaxşı olar ki, dövlət bu yeraltı sərvətin yerüstü sərvətə çevrilməsi üçün səy göstərsin və neftdən xərclərin təmin edilməsi üçün istifadə olunmasın. Bu istiqamətdə dövlətin, dövlət idarəetməsinin zəruri olmadığı sektorlardan çıxması zəruridir ki, dövlətin xərcləri azalsın. Əlbəttə, dövlətin neftdən gələn gəlirlərə bağlılığının azalması gəlirlərə yüksək vergi tariflərinin zorla qəbul etdirilməsi demək deyil.

**Dissertasiyanin əsas elmi nəticələri üzrə aşağıdakı elmi məqalə və tezislər çap olunmuşdur:**

1.Məlik.H.M. "Dovlət tənzimlənməsinin mahiyyəti haqqında"// AMEA İqtisadiyyat İnistitutu, Milli iqtisadiyyatın problemləri . (məqalələr toplusu) IV buraxılış. 2007, s.74-79.
2. Məlik H.M. "İqtisadiyyatin dovlət tənzimlənməsinin zəruriliyi və reallaşdırılması"// AMEA İqtisadiyyat İnistitutu, Milli iqtisadiyyatın problemləri. (məqalələr toplusu) IV buraxılış. 2008, s.72-76.
3. Məlik H.M. "İranda azad iqtisadiyyatın təhlili və onun regiondakı ölkələrlə müqayisəsi". //AMEA İqtisadiyyat İnistitutu, Elmi əsərlər. №2. 2010, s.96-99
4. Məlik H.M. "Dovlətin makroiqtisadi göstəriciləri və iqtisadi inkişaf". //AMEA İqtisadiyyat İnistitutu, Elmi əsərlər. 2010, №3. s.116-118
5. Məlik H.M. "İran iqtisadiyyatnda dovlətin yerinin araşdırılması". //AMEA İqtisadiyyat İnistitutu, Elmi əsərlər. №3. 2009, s.159-163
6. M.M.Гусейн. "Основные направления внешне торговой политики в современный период". //Перспективы науки, №7 (22), 2011, 186-189
7. Məlik H.M. "Dövlət və iqtisadiyyatda onun ölçüləri (İran və dünya ölkələrinin tətbiqi araşdırılması). //AMEA İqtisadiyyat İnistitutu, Elmi əsərlər , 2010, №4, s.150-154.
8. Məlik.H.M."İran İslam Respublikasının iqtisadiyyatında subsidiyalar". //AMEA İqtisadiyyat İnistitutu, Elmi əsərlər, 2011, №-3. s.253-259
9. Məlik H.M. "İran iqtisadiyyatında dövlətin yerinin araşdırılması". /Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr: (konfrans materialı), 2010, s.232-233.
10. Məlik H.M. Dovlətin iqtisadi proqnozlaşdirma və valyuta sisteminin formalaşması. /Gənc alimlərin elmi konfransının materiallari. Bakı, Elmin inkişaf fondu. 2012, s.277-279



11. Məlik H.M. İran İqtisadiyyatinda investisiya təminati və onun müasir vəziyyətinin təhlili. / "İnnovasiya yönümlü inkişafin sosial – iqtisadi problemləri" beynəlxalq elmi konfransının materiallari. Sumqayıt-2012 ,s.46-47

**Малик Гусейн Меджид оглы**

## Усовершенствование государственного урегулирования экономики Ирана

### Резюме

Диссертационная работа состоит из введения, из трёх глав, восьми параграфов, заключения, предложений и из списка использованной литературы.

В вводной части автор обосновывает актуальность темы, показывает уровень изучения проблемы, отмечает объект, предмет, цель, задачи, научную новизну и теория–практическое значение исследования.

В первой части диссертации, которая называется «Визуально–методологические основы государственного урегулирования экономики», даны содержание и значение государственного урегулирования экономики и особенности его формирования. Кроме этого, он отметил Иранскую модель государственного урегулирования экономики.

Во второй части, которая называется «Нынешнее состояние государственного урегулирования экономики в Иранской Исламской Республике и его анализ», отмечено современное положение государственного урегулирования экономики в Иране, динамика его развития и экономическая оценка.

В третьей части диссертации, которая называется «Основные направления Иранской Исламской Республики в области государственного урегулирования экономики», даны направления по увеличению субсидий государства по экономическим отраслям в Иране, роль государства в усовершенствовании налогов и ценовой политики, инвестиционное обеспечение по отраслям и его усовершенствование.

В заключительной части диссертации даны предложения и стороны, имеющие важное методологическое и практическое значение, исходящие из материала диссертации.

**Huseyn Malek**

**Improvement of the state regulation of Iran's economy**

**Summary**

The thesis consists of the introduction, 3 chapters, 8paragraphs, the summary and the offer and the list of the literature used.

Inn the introduction the author substantiates the urgency of the theme, indicates the analysis level of the problem, notes the object, the subject, the aim, the missions, scientific innovation and scientific and theoretical importance of the research.

In the first chapter of the thesis called "Theoretical and methodological bases of the state regulation of the economy" the content and essence and formation of the state regulation is given. Furthermore the author indicated Iran model of the state regulation of the national economy.

In the second chapter of the thesis called "The contemporary status and analysis of the state regulation of the economy in Islamic Republic of Iran" the contemporary status of state regulation in Iran, its improvement dynamics and evaluation of economy was indicated.

In the third chapter of the thesis called "The main directions of the improvement of the economy of Islamic Republic of Iran" the directions of increasing of the subsidies in Iran according to economic fields, the role of the government in improving price and tax policy, investment supply according to fields and its improvement is given.

In the summary features and offers of methodological and practical importance are given.



**МИНИСТЕРСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКОЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГУСЕЙН МАЛИК МЕДЖИД ОГЛЫ**

**Усовершенствование государственного урегулирования экономики Ирана**

5307.01- Экономическая теория

5310.01 –Мировая экономика

**АВТОРЕФЕРАТ**

Диссертации на соискание ученой степени доктора философи по экономике

**Баку-2013**

Каьыз форматы- 60х84 16/1, 1,5 ч.в.

Тираж -100

АМЕА-нын мятбяясиндя чап олунмушдур